Salam, hörmətli Əlirza bəy!
Gününüz xeyirli olsun!

2021-ci il mənim üçün ən çox "Kredo" ili kimi yaddaqalandır. İlin əvvəlində, yanvar ayında siz mənim şeirlərimi çap etməklə çoxdan ədəbiyyat aləmində olmayan, yadrıxmış, özünə inamı azalmış Nübar Eldarqızına çox böyük sürpriz etmiş oldunuz. Sonra mərhum, böyük şairəmiz Nisə Bəyim haqqında yazdığım yazını hara göndərəcəyimi bilmədiyimdən, hansısa intuisiyanın təsiri altında "Kredo"ya göndərdim və tam təsadüfən çap etdiyinizi bildim. Çünki, Şirvan şəhərinə bir çox qəzet, jurnal gəlmir...

Daha sonra Əlirza Xələfli böyüklüyünüzü göstərərək, mənim FB səhifəmdə paylaşdığım "Allaha əmanət" essemi yüksək dəyərləndirərək, roman adlandırdınız, barəsində çox gözəl fikirlər söylədiniz, məni daha da şərəfləndirərək, haqqımda yazdığınız gözəl yazınızla bərabər qəzetinizdə çap etdiniz.

Etdiyiniz bütün bu təəssübkeşlik, ədəbiyyatsevərlik məni xeyli ürəkləndirdi və xüsusilə, kitab çap etdirmək istəsən, rəy yazaram, -deməniz... kitabın adı haqqında fikrimdə tutduğum iki addan hansı daha yaxşı olar, deyə sizə sormama məqam yaratdı.

İnanın, mən heç vaxt böyük həcmli əsər yazmaq istəməmişəm. Az, öz olsun!-demişəm həmişə.

Bacarmışamsa, nə gözəl!..

Siz mənim kitabı "Letargiya yuxusu" adlandırmamı məsləhət gördünüz və bu adda bir şeirin də mütləq olmasının lazımlığını vurğuladınız. Hətta şeir haqqında bir neçə ipucu da yazdınız. Şeirdən gediş, qayıdış, arada hiss etdiklərim və.s. haqqında.

Mən həm orta məktəbdə, həm texnikumda, həm də ali təhsil ocağında nümunəviyə yaxın şagird, tələbə olduğumu söyləyə bilərəm. Təvazökarlıq etmədiyim üçün bağışlayın... Həmin o yaxşı şagird müəlliminə necə diqqətlə qulaq asıb, deyilənlərə əməl edirsə, eləcə, şeirə başladım... Əvvəllər yazdığım bir-iki şeirdən də istifadə edərək yazdım, yazdım... və kiçik poema adlandırdığım bu yazı ortaya çıxdı... Bəlkə hələ çox təzədir deyə, - səhvlərimi, zəif cəhətlərimi tuta bilmirəm, amma, hələ ki, oxudum və özümü də qane edən bir şey ortaya çıxıb, deyə sevinirəm... Onu da sizə göndərmək qərarına gəldim, oxuyun, bəyənsəniz, çap etmənizi xahiş edirəm...

Cəmi bir il olar, şeirə qayıtsam da, uğurlarım az olmayıb. İlk öncə 525-ci qəzet, (bir neçə dəfə), sonra " Ulduz" dərgisi, daha sonra "Ədəbiyyat" qəzeti, "Kulis" portalı... Amma, ən çox "Kredo"!.. Hamıya çox minnətdaram, sizə isə çox-çox minnətdaram, böyük müəllim, böyük qardaş Əlirza Xələfli!

**Hörmətlə:**



*Nübar ELDARQIZI*
*18.09.2021*

# LETARGİYA YUXUSU

*(kiçik poema)*

Məni bir yuxu tutdu,
Tutdu ki, ölməyim.
Upuzun bir yolum var-
Yuxumu bölməyin!..

* * *

Yuxunun içində yuxu görürdüm;
-Qaranlıq, uzun bir tunelə girdim.
Lap uzaqda sanki bir işıq gördüm,-
Tanıdığım kim var, hər kəs ordaydı,
Səssiz fəryad edir, hamı xordaydı...

-Bizi bu yuxuya ezam ediblər,
Kimdə vicdan varsa, edam ediblər...
Burda meymunları adam ediblər,
Adamlar zombiyə çevrilib gördüm,
İnqilabdır, dünya devrilib gördüm...

* * *

Əbədi yuxuya getməkçün dünya,
Tələsir...Bəlkə də fərman verilib!..
Bizi yaşadanı öldürürük biz,
Ölü namazıyçun azan verilir...

Onun dərdlərini yazdıq, nə fayda,
"Məktub yetişmədi" ağ saraylara...
Şahların həmişə təlxəyi olub,
Şairi kim qoyar şah saraylara?..

Biz, bu iki dərdiş dərd paylaşırıq,
Qos-qoca dünyanın başı çiynimdə...
-Sənə nə olmuşdu,şair doğuldun,
-İndi gəl cənazə daşı çiynində...

* * *

Gəl səni əzizləyim,
Sevgidən məhrum, dünya,
Nə mən dağ deyilmişəm,
Nə sən uçurum,dünya!..

İkimiz də zavallı,
Düz olub,-düzdə qalan...
Dünya-sonsuzdur,-yalan!
Şair –ölməzdir,-yalan!..

* * *

Gözümdən yuxu axır
Sel-su kimi.
Mənbəyindən mənsəbinə
üzüb gedim.
"Günlər keçir uyqu kimi"
Ay yatıb, il yatıb gedim...
Durub yuxu yozum, dedim...

* * *

Hər yuxu görəndə anam deyərdi,
Yusif peyğəmbərə salavat olsun!
Bəla gələcəksə, mal-mülkə gəlsin,
Harda kimimiz var, salamat olsun!

-Yuxu deyib keçmə, yeraltı dünya
misalı, -orda da qaynayır həyat.
Fitnə-fəsad ilə dolusa beynin,
Yuxuna da şeytan olar musallat.

Qəlbin hələ safsa, qoru qəlbini,
Görsən bacarmırsan, yat,- mənim kimi!
Şeir həyatında vazkeçilməzsə,
Şarj yığana qədər, at - mənim kimi!

Get!- Qayıda bilsən, möhtəşəm qayıt!
Elə gəl, desinlər getməyə dəymiş!
Hərdən özümə də qəribə gəlir,
-Məni qaytardısa...Bu şeir nəymiş?!
Ondan adi söz tək bəhs edəmmirəm,
-O, mənim dördüncü övladım oldu.
Sevdiklərim məni həyatda tutdu,
Şeir göyə çəkən qanadım oldu!

Kimsəni bu qədər vəsf etməmişəm,
Heç kəsə "sevirəm" demədim, heç vaxt.
Bütün duyğularım ona can atır,
-Mən kənd uşağıyam, şeirsə-paytaxt!

* * *

Yatdım, nəzərlərdən, gözlərdən uzaq,
Yatdım, şeirlərdən, sözlərdən uzaq,
Ölüm yuxusuydu, -sizlərdən uzaq,
Ölsəydim nə deyə ağlardız məni?!

Param-parça idim, səfil-sərgərdan,
Sevdiklərin belə umursamayan...
Anam səslənməsə o üzdən:-Dayan!
Allah bilir hardan yığardız məni...

Hər yerdə "mən"imdən bir parça qaldı...
Bir deyil, beş deyil, onlarca qaldı...
Uçmuş dam altında günlərcə qaldım,
Zəlzələ sonrası...çıxardız məni...

Bu mənim yuxumdu, amma qat-qarış...
Sən niyə burdasan? -Yuxun qarışmış?..
-İskəndərin sirrin faş edən qamış




bitən quyudaydım...Çağırdız məni...

* * *

Şeir məni dincəldər,
Rahatlar yuxu kimi...
Qəlbim uçunur ona,
Qızım tək, oğlum kimi...
Mənimlədir hər zaman,
Şüurum, ağlım kimi...
Məni tutsun, kaş mənim
Onu tutduğum kimi!..

* * *

Nə qədər yatmışamsa,
üstümdən zaman keçib...
kimlər bu, kimlər başqa
dünyanı məkan seçib.
Yaşamasam da illər
Ömür kartıma köçüb...

* * *

Nə yaxşı ki, tutdu məni o yuxu,
O tutmasa, tutacaqdı yer məni.
Anam yoxdu layla çalıb uyutsun,
Ninni deyib yatırdı şeir məni.

Bir adamlıq, "bir anlıq"dı o yuxu,
Xarabaydı, viranlıqdı o yuxu,
Soyuq idi, qaranlıqdı o yuxu,
Gecə necə görsün gündüz kor, -məni?

Əzilənə, cümlə, məzlum deyilir,
Zülm edənə olsun zülüm, deyilir,
Ayıq ikən kimsə məsum deyildir,
Sən də yatıb gəl yuxuda gör məni...

* * *

Şah! verən- ölkənin üstündə yatıb!
Mat olan, - ölkənin üstündə yatıb...
Məğlub fiqurlar çox pis gündə yatıb,
Yumşaq yataqlardan yuxular qaçıb...
Adam var,evində sürgün yaşayır,
Ölüm qorxusunu hər gün yaşayır,
-Şair,söz deməyin fərqin yaşayır,
Söz-yalan yazanın çoxundan qaçıb!

Yatdım ki,gözümün acısın alım,
Qayıdıb, sözün ən ucasın alım!
Mən sənin ömrünün gecəsin alım,
Sənin yuxun olum,-yuxumdan qaçıb...

* * *

Qoymur əl-qol atmağa,
Tutub məni bu yuxu,
Mən onun içindəyəm,
Udub məni bu yuxu.
Sürgün eləyib, yoxsa,
Satıb məni bu yuxu?
-Yuxudan ayılmıram.

Nə görmüşəm dünyada
Hamısından qorxuram!
Olacaqdan, olmuşun
Anısından qorxuram!
Dünya ağır xəstədir,
Tanrısından qorxuram!
-Qorxudan ayılmıram!

Kimdən qaçmaq istədim,
Dirək, - yoluma çıxdı!..
Könlüm elə ağrıdı,
Acı dilimə çıxdı...
Nə qədər yol aradım,
Hamsı ...ölümə çıxdı...
Yorğunam, ayılmıram!..

* * *

O zaman mən ömrün yarısındaydım,
Getməklə qalmağın arasındaydım,
-Əvvəl gedəcəklər sırasındaydım,-
Məsullar dedi ki,arxada durum!..

Sanki zühur etdim,-söz gələn kimi,
Qələm peyda oldu,cüz gələn kimi,
İstixarə etdim,-düz gələn kimi,
Qərara gəldim ki,yuxudan durum...

* * *

Bir ümid doğuldu qəlbimdə bu gün,
Qaim-qədim olsun,böyüt,ilahi!
Bizim bildiyimiz ən uca sənsən,
İstəsən bar verər söyüd,ilahi!

-Yuxuda bir ömür sürüb ayıldım,
Öylən çağı getdim,qürub ayıldım,
Mən gedib o üzü görüb ayıldım,
Yatmış vicdanları ayılt,ilahi!

Dünya iflic olub,yarı diridir...
Vaxtı yaxınlaşır,ölən biridir...
Yaşam alanı yox,yanğın yeridir,
-Sacın yaman qızıb,soyut,ilahi!

Heyvanlar ulaşır, yuvalar yanır,
Vulkanlar püskürür, lavalar yanır,
Şairlər havalı... Havalar yanır,
Yoxdurmu bu zülmə hüdud,ilahi?

Küləklər qum deyil,təhdid sovurur,
Günəş zəbani tək adam qovurur,
Kim sənin Yerini dağıdır, ya vur,
Ya dünyam var, - demə, unut, ilahi!

Gələn bu dünyaya gəlib-gün görə!
-Gördüyü silahla sarılmış çevrə...
-Mən bir adi, zərif, qərib şairəm,
Kim dinlər ki, verim öyüd, ilahi!

Düzələcək deyə səbr etmə hədər,
Verdiyin ağılla bizdən bu qədər!
Gedənə min şükür, gələn lap betər!
Sənə qalıb ancaq, umud, ilahi!
Yoxsa, - hamımızı uyut, ilahi!

***Sentyabr, 2021***